# AZƏRBAYCAN ƏDƏBİYYATINDA SONET JANRININ TƏŞƏKKÜLÜ

**Məmmədova Təranə LƏTİF QIZI***

**Özet**

XX. yüzyılda Azerbaycan sonet şiir türünün ilk yaradıcısı Adil Babayev olmuştur. Azerbaycan edebiyatının sonraki dönemlerinde şairlerden Samed Vurgun, Abdulla Şaik, Şeker Aslan, Vaqif Hüseynov ve başkaları da sonet şiir türünde değerli sanat eserleri yaratmışlar.

**Anahtar kelimeler:** Azerbaycan, sonet, şiir, edebiyat, sanat

**Abstract**

In the Century, A.Babayev had worked not only on the prose and sonnet genre of Azerbaijan, but also on the human being's relationships. On the othe hand, the famous poets of Azerbaijan such as Samad Vurghun, Abdolla Şhaiq, Şhakar Aslan, Vaqif Hüsseynof and etc. Had sujjeccfully worked on the genre of sonnet and literature.

**Key words:** Azarbaijan, sonet, poetry, literature, work

XX əsr Azərbaycan poeziyasında, artıq qeyd etdiyimiz kimi, sonet janrının sistemli surətdə işlənib vətəndaşlıq hüququ qazanmasında A.Babayevin əvəzsiz xidmətləri olmuşdur. Məhz onların yaratdığı nümunələr nəticəsində ötən əsrin əvvəllərində şeirimizdə ara-sıra görünən sonet janrı 1960-70-ci illərdə yenidən dirçəlmiş və lirik şeirimizin çoxəsrlik ənənələrindən bəhrələnmək yolu ilə sevilib oxunan nümunələrə çevrilmişdir. Adil Babayev sağlığında şəxsən tərtib etdiyi kitaba, nədənsə, on sonet daxil etmiş, qalan şeirlərini şəxsi arxivində saxlamışdır. Məlumdur ki, sonet şairin yaradıcılığının müdrik çağında müraciət etdiyi şeir janrıdır və təbii ki, bu şeirlər onun hissiyyat və müşahidələrinin dərinləşdiyi 70-ci illərin məhsuludur. Ona görə də Adil Babayevin bu janrda yazdığı əsərləri sırasında dərin olmayan, fəlsəfi fikirlərdən uzaq, bəsit məzmunlu nümunələrə rast gəlinmir. Onun ilk sonetlərindən olan «Bağbanlar gözləmir öldüyü günü» misrası ilə başlanan soneti həmin janrın poetexniki tərəflərinə tam cavab verməklə yanaşı, dərin fəlsəfi məzmuna malikdir:

* Bakü Devlet Üniversitesi

Bağbanlar gözləmir öldüyü günü,
Bağbanlar ümidlə yaşayır hər vaxt.
Uzadır bağbanın bəlkə ömrünü,
Əkdiyi hər çiçək, hər yaşıl budaq.

Bağbanlar görmüşəm saç-saqqalı çal,
Baxır həyatına dan yeri kimi.
Düşüncəsi şəffaf, zəhməti halal,
Əlləri bir loğman əlləri kimi.

Bağbanlar elə bil həyat rəmzidir,
Kökü ağaclarla torpağa gedir,
Torpaqda qoruyur öz vüqarını.

Bəli, düşünmürlər ölümü onlar.
Axı, hər yay fəsli bağban olanlar
Gözləyir saldığı bağın barını
(Babayev, 32).

İnsan həyat fəlsəfəsini bağbanın əməyi timsalında əks etdirən bu sonet Adil Babayevin bu mövzuda yazdığı ilk nümunələrdəndir.

Adil Babayevi bu janra müraciət etdirən heç də dərin və geniş mətləblərin, hadisələrin iri həcmli şeirlərlə ifadəsi ola bilməz. Bir də həmin geniş məzmunun, hadisənin təsviri üçün, ən aşağısı, poema janrına müraciət etmək olardı. Deməli, Adil Babayevin sonet janrına müraciət etməsinə təkan verən tamamilə başqa bir qüvvədir. Bu, onun tərcüməçilik fəaliyyətindən doğan qüvvədir, yəni Qərb ədəbiyyatının dahi simalarından olan Uilyam Şekspir yaradıcılığı və onun şeirlərinə olan məftunluq və maraqdır. Yeni söz demək, yeni ifadə forması, yeni üslub yaratmaq cəhdi də bu təsiri gücləndirən faktorlardandır. Adil Babayevin sonet janrına müraciət etməsində qeyri-adi, süni bir şey yoxdur. Yəni bu cəhd ümumi inkişafdan doğan zəruriyyətdir. Belə ki, Azərbaycan və ümumiyyətlə, istənilən digər xalqın ədəbiyyatı təşəkkül edib formalaşdığı ilk dövrlərdən başlayaraq uzaq, yaxın xalqların ədəbiyyatları ilə daim qarşılıqlı əlaqədə və təmasda olmuş, onlara öz yaradıcılıq təcrübəsindən nə isə vermiş və təbiidir ki, həmin prosesin əksi də baş vermiş, yəni həmin ədəbiyyat digər xalqların ədəbiyyatından faydalanmışdır. Tarix boyu davam edən qarşılıqlı faydalanma prosesi bədii yaradıcılığın daha çevik və dinamik janrı olan lirik poeziyada özünü xüsusilə qabarıq biruzə verir. Məhz bu yolla milli poeziyamız doğma janrlarla bərabər, nəinki təkcə sonet, ballada və sairlər kimi alınma, sintez janrlarla da zənginləşmişdir. Və demək lazımdır ki, həmin janrlar uğurlu qələm təcrübəsi sayəsində ədəbi prosesdə tam vətəndaşlıq hüququ qazanmış, müxtəlif şairlərin yaradıcılığında bir lay təşkil etmişdir. Bir cəhəti də qeyd etmək vacibdir ki, Adil Babayev sonet janrını seçərkən, onu Azərbaycan ədəbiyyatına gətirərkən mexaniki tətbiq üsuluna aludə olmamış, həmin janra milli ovqat, Azərbaycan poeziyasına xas liriklik vermişdir.

Lakin sonetə maraq hər zaman eyni olmamış, belə ki, XIV-XIX əsrlər arasında bu janra maraq o dərəcədə azalmışdır ki, hətta o, süquta uğramış sayılırdı. XVI əsrdə sonetə artan nisbi maraq XX əsrin 30-cu illərində daha da artmışdır. Təbiidir ki, bu janr Azərbaycan ədəbiyyatında da XX əsrin 30-cu illərindən sonra tanınıb. Sonet Azərbaycan şeirindən forma etibarı ilə fərqlənsə də, bu janra müraciət edən sənətkarların milliliyi qoruması hesabına məzmun, lirik təhkiyə üsulu, bədii təsvir və ifadə vasitələrinə görə poeziyamızda qondarma janr kimi görünmir.

Müəyyən dərəcədə süquta uğramasına baxmayaraq, XVI əsrdən başlayaraq sonet Avropanın digər ölkələrinin poeziyasında geniş yayılmağa başlamış, eyni zamanda təkmilləşmiş və yeni formalarla zənginləşmişdir.

Avropa poeziyasının sonet janrını Azərbaycan poeziyasında vətəndaşlıq hüququ verən yazarlardan biri də Adil Babayev oldu. Demək lazımdır ki, Adil Babayevə qədər də sonet janrı Azərbaycan poeziyasında ayrı-ayrı şairlərin müraciət etdiyi şeir formalarından olub. Lakin bəzən bu məqsədli yox, təsadüfi xarakter daşıyıb. Azərbaycan şairlərindən Səməd Vurğun, Abdulla Şaiq, Şəkər Aslan, V.Hüseynov və başqaları da bu janrda uğurlu bədii nümunələr yaratmışdır. Bunlardan birincisi bu və ya başqa lirik janrlarda yazdığı əsərlərdə bəzən adını çəkmədən sonetlərə xas quruluşdan istifadə etmişdir. Məsələn, Səməd Vurğunun «Komsomol poemasının» ilk misraları belədir:

Ayazlı, şaxtalı bir qış axşamı,
Yeddi yoldaş olub yola düzəldik.
Qarlarla örtülü bir düzə gəldik.
(Vurğun, 7).

Poema klassik məsnəvi janrında yazılmış, onun qafiyə sistemi də həmin misralar istisna olmaqla, bu janrın tələblərinə uyğundur. Lakin yuxarıda gətirdiyimiz üç misralıq parça Qərb poeziyasındakı sovet janrının üçlüyünü, yəni «İlahi komediya»nın formasını xatırladır. Ola bilər ki, bu bir təsadüf olsun və sözgəlişi işlədilsin. Amma şairin həmin formadan sonrakı əsərlərdə də istifadə etməsi, zənnimizcə, onun bu istiqamətdə yeni bədii ifadə axtarışları ilə əlaqədardır. Şairin «Muğan» poemasında elə parçalar var ki, ancaq üçlüklərlə yazılmışdır:

...Kürün qırağında, Muğan düzündə,
Zəmisi, tarlası suyun gözündə.
Salmanlı adlanan bir kəndimiz var.

Onun dörd yanında yaşıl tarlalar,
Seyrək ağaclıqlar, qamışlıqlar da,
Tam yaşıl görünür lap son baharda.

...Üz-üzə durmuşdur suvaqlı damlar,
Hay verib, hay alır gümrah adamlar.
Qızlar su götürür lilli arxlardan.
(Vurğun, 386)

Verdiyimiz bu parçada sonetin üçlük forması ilə oxşarlıq aydın gözə çarpır. Lakin mövzudan, daha doğrusu, lirik tərənnüm səciyyəsindən asılı olaraq, bədii ifadə tərzinin rəvanlığını və gözəlliyini təmin etmək üçün müəllif şeirin qafiyə quruluşunda müəyyən dəyişikliklər etmişdir. Başqa sözlə, o, poeziyamıza yenicə qədəm qoymuş janra, onun bədii imkanlarına yaradıcılıqla yanaşmışdır. Onu da demək lazımdır ki, sonet janrının təşəkkülündə, formalaşmasında və işlənmə təcrübəsində belə variasiyalara, dəyişiklik və təkmilləşmə hallarına başqa ölkələrin bədii ədəbiyyatlarında da rast gəlmək mümkündür. Daha doğrusu, bədii proses üçün belə hallar adi hadisədir. Təsadüfi hal deyil ki, müasir ədəbiyyatşünaslığımızda yuxarıdakı nümunəyə uyğun olan sonetlər çələngini bəzən poema adlandırırlar. Fikrimizcə, bu istilahı dəqiqləşdirməyə ehtiyac var. Əslində, hər çələng eyni və ya yaxın mövzuda yazılmış şeirlər toplusudur. Poemalarda müəyyən süjet xətti, hadisələr, təhkiyələr və nəhayət surətlər olduğu halda, çələnglərdə bunlar yoxdur. Ayrılıqda götürülmüş lirik şeirlər, silsilələrdə də lirik

qəhrəman müəllifin özüdür. Eyni bir hal sonetdə də özünü göstərir. Yeri gəlmişkən, sonet çələngi adlandırılan həmin toplu şeirlər sonetlərin ən mürəkkəb və çətin formasıdır. O, şairdən böyük istedadla bərabər, dərin bilik və müşahidə bacarığı, bədii-fəlsəfi idrak, ümumiləşdirmə təcrübəsi, poetik vərdiş, yüksək bədii dil mədəniyyəti tələb edir. Sonet çələngi qarşıya qoyulan problemi kompleks şəkildə həll etməyə çalışır və şərti olaraq deyə bilərik ki, o, poema janrına uyğun gəlir. Sonet isə kiçik həcmli olmaqla, ən yaxşı halda, silsilə təşkil edə bilər. Azərbaycan poeziyasında sonet çələngi Səməd Vurğun yaradıcılığı timsalında müşahidə edilir və bu da, qeyd etdiyimiz kimi, məqsədli şəkildə olmayıb. Digər sonet yaradıcıları, o cümlədən, Adil Babayev sonet çələngi yaratmayıb. Ancaq sonet çələngi və ya sonet formasında ifadə olunmasından asılı olmayaraq bu janrda yazılmış əsil bədii söz nümunəsi məzmunun dərin ifadəsi üçün həcmdən asılı olmur. Məsələn, sonetçi şair kimi tanınan Vaqif Hüseynov «İnsan» adlı sonetində insanın cəmiyyətdə yeri, onun mənəviyyatı, onun insan toplumunda mövqeyi və qarşılıqlı əlaqələri, nəhayət, həyat və təbiətə dair müəllifin ictimai fəlsəfi fikir və düşüncələri əsas yer tutur. Həm də şairin öz oğlu ilə məhramanə söhbəti hər hansı didaktikadan çox-çox uzaqdır, o, nəsihət vermir, əksinə, insanı onun sirli-sehrli mənalarla dolu dünyasını səxavətlə, şövqlə təsvir və tərənnüm edir.

Hamıdan ağıllı, hamıdan gözəl,
Bir qız yollarında dayanıb, oğul!
Nə xına görübdür o göyərçin əl,
Nə də sir-sifəti boyanıb, oğul.

Elə gözəldir ki, sən yemə, içmə,
Tamaşasına dur hüsnün, qamətin.
O qızın yanından mürgülü keçmə,
Sənin taleyindir, sənin qismətin.

Onun saçlarında yaylağın ətri,
Onun nəfəsində bulağın ətri.
Hünərdə, qeyrətdə bir dişi aslan.

Cahanda ölüm də eşqə baş əyir,
Yer deyir, göy deyir, dənizlər deyir:
Hamıdan güclüsən, İnsan, ey İnsan.
(Hüseynov, 66).

Göründüyü kimi, sonet silsiləsi bir hadisədən, mətləbdən digərinə kəskin manevr etməklə keçməyə geniş imkan yaradıb. Gözəlin təsvirindən birdən-birə həyat və ictimai fəlsəfi fikirlərə, düşüncələrə keçilməsi oxucunu o qədər də diksindirmir, çünki şeirin quruluşu, dördlüklər və üçlüklərin növbələşməsi ritmikliyin məzmuna xidmət etməsinə bir qədər imkan verir. Şübhəsiz ki, belə məzmun sıçrayışı məsnəvi janrında olsa idi, əsərin hissələri arasında harmoniya, ahəngdarlıq pozulardı. Deməli, şeirdə, nəzmdə forma ritmikliyə xidmət etməklə yanaşı, məzmun dolğunluğuna da istiqamət verir. Lakin mövzudan mövzuya keçmək üçün edilən bu kəskin manevr Adil Babayev sonetlərində təsvir və fəlsəfi yekun istiqamətində getdiyindən, o qədər də üzdə olmur:

Rəssam lövhə yaradır, çörəkçi un ələyir,
Qəvvas suyun dibindən tapır mirvari, inci.
İnsanın ürəyinə günəşdən nur çiləyir
Öz əlinin zəhməti, öz işinin sevinci.

Özgənin möhnətindən, özgənin zəhmətindən
Varlanıb xoş yaşamaq xoşbəxtlik sayılarmı?
Tər ilə zinətlənən zəhmətin şöhrətindən
Böyük şöhrət olarmı, bəxtiyarlıq olarmı?

Unutmayaq bir an da insanlıq qürurunu,
Ömrümüzə içirdək gözümüzün nurunu.
Fəxr eləyək hər zaman alnımızın təriylə.

Düşməyək hərisliyin çirkablı izlərinə,
Baxaq əsrin, həyatın, insanın gözlərinə,
Namuslu bir insanın qorxusuz gözləriylə.
(Babayev, 109)

Vaqif Hüseynovin yuxarıda verdiyimiz sonetində olduğu kimi, bu sonetdə də əvvəl təsvir, sonra fəlsəfi yekun, nəticə gəlir. Etiraf edək ki, Vaqif Hüseynov sonetində mövzudan mövzuya kəskin sıçrayış hiss edilsə də, Adil Babayevdə bu keçid bir qədər harmonikdir, rabitəlidir. Çünki ikinci dördlükdə suallar silsiləsi oxucunu yekun, fəlsəfi cavaba hazırlayır.

Adil Babayevin sonetləri mövzu və məzmun etibarilə rəngarəngdir, əlvandır, daha doğrusu, poeziyanın milli janrlarında əslini tapan motivlər sonetlər üçün də eyni cür aktualdır və təbiət və insan, torpağa bağlılıq, yaşamaq və yaratmaq həvəsi, sevgi və məhəbbət duyğuları, mənəvi-psixoloji məqamlar, fəlsəfi düşüncələr oxucu üçün maraqlı mövzulardan ola bilər.

Adil lirik şairdir. Onun şeir rübabının sədaları rəngarəngdir, həyatın, təbiətin hər hadisəsi onun şair könlünü həyəcana, riqqətə gətirirdi, onun üçün böyük-kiçik mövzu, böyük-kiçik hadisə yox idi. O, istənilən problemi, mövzunu xüsusi bir ilhamla əsas bir ədəbi anlayış, məfhum ətrafında cəmləşdirirdi – İnsan. Və onun arzularına, gələcəyinə xidmət. O, Vətəndən də, onun yollarından da, təbiət təsvirindən də, ictimai-siyasi hadisələrdən də, hətta küləkdən də, ulduzlardan da danışanda son nəticə kimi İnsana gəlib çıxırdı. İnsan Adil Babayevin ölçü vahididir. Onun qəlbi İnsana məhəbbətlə və şəfqətlə doludur. İnsana, onun qurduğu cəmiyyətə fayda gətirən hər hansı hadisə yaxşıdır, gözəldir, məqbuldur, insana ziyan verən, onun səadətinə qarşı çevrilən hər hansı hadisə pisdir, eybəcərdir, nifrətə layiqdir. İnsanın insandan nəyisə əsirgəməsi böyük bir el qınağıdır.

Adil Babayev sonetlərində xoşbəxtlik anlayışı da özünəməxsus şəkildə izahını tapır. O, bu anlayışı dəyişməz, donuq, bütün dövrlər üçün eyni bir məna verən məfhum kimi götürmür. Xalqımızın keçmişi üçün vətəni azad görmək, zülm və istismarı aradan qaldırmaq xoşbəxtlik sayılırdısa, şairin dövrü üçün həmin anlayış yeni mahiyyət daşıyırdı. Həmin mövzudan danışan Aydın Mikayılov Adil Babayev sonetlərindəki xoşbəxtliyi bu jür səciyyələndirir: «Xoşbəxtlik indi sovet adamlarından ötrü daha çox əxlaqi, mənəvi məzmunla zənginləşmişdir» (Mikayılov, 6.) Şair xoşbəxtliyi vəsf edərək bəxtiyarlığı belə səciyyələndirir:

Özgənin dövlətindən, özgənin zəhmətindən,
Varlanıb xoş yaşamaq xoşbəxtlik sayılarmı?
Tər ilə zinətlənən zəhmətin şöhrətindən
Böyük şöhrət olarmı, bəxtiyarlıq olarmı?

Adil Babayev sonetlərinin ümumi məzmunu haqqında danışarkən onun bu janrda yazdığı ilk və son şeirinə diqqət yetirməmək mümkün deyil. Şair ilk sonetini 1949-cu

ilin noyabrında yazmışdır. Bu, «Keşikdə» adlanır və XX əsrin ən dəhşətli müharibəsindən məğlub çıxan Berlinin mənzərəsinə, onun küçələrində keşik çəkməklə dünyanın dincliyini qoruyan Azərbaycanlı əsgərin xəyal aləminin lirikasına həsr edilmişdir:

Sakit nəfəs alır Berlin şəhəri,
Çökür meşələrin qoynuna axşam.
Bir əsgər qəlbində sonsuz bir ilham,
Dinləyir ucalan təranələri.

Böyük bir binanın durmuş yanında,
O cavan tutaraq əlində yaraq.
Nəğmə gənc qəlbinə mizrab vuraraq
Əziz bir diyarı gətirir yada.
(Babayev, 27).

Həmin bu sonet quruluş və qafiyə sisteminə görə mükəmməldir və bu şeirdə Azərbaycan poeziyasından gələn bir səciyyə, xüsusilə süjetli şeir əlaməti diqqəti cəlb edir. Belə ki, lirik sonetdə müxtəsər bir süjet, şairin özü ilə bərabər əsgər və ana surəti də yaradılmışdır.

Şairin sonuncu soneti isə çap edilməyib, çünki onun oğlu Etibar Babayevin etiraf etdiyi kimi, «Adil Babayevin ev arxivində olan, istifadə etmədiyi qeyd dəftərlərini götürüb işlətmək ağırdır. Çünki bunlar Adil Babayevin yazılmayan şeirləri, səslənməyən nəğmələridir:

Mən ömür istəmirəm riya, xəyanət üçün,
Yurduma gərək olan söz üçün, sənət üçün,
Ömürdən doymamışam, həyatdan doymamışam...

Bu, onun yazdığı son sonetin son misralarıdır» (Etibar, 10).

Ümumi mənası, məğzi və qayəsi vətənpərvərlik, humanizm, kamil insan olan Adil Babayev sonetləri insan və cəmiyyət, insan və təbiyyət, insanın başqalarına və özünə münasibəti onun daxili həyəcanlarını, istək və arzularını işıqlandırır. Bu qayə və ideyalar hamımıza örnək olmalıdır, insan --- xalqının, vətəninin övladı olan hər bir adam həyatda çətinlikdən qorxmamalı, başqalarının dərdinə şərik, sevincinə ortaq olmağı bacarmalıdır.

**Ədəbiyyat siyahısı**


1. A.Babayev. Qılınclar arasında. Bakı, Gənclik, 1970, s.32.
2. Səməd Vurğun. Əsərləri, III cild, Bakı, EA-nın nəşriyyatı, 1960, s.7.
3. Səməd Vurğun. Əsərləri, III cild, Bakı, EA-nın nəşriyyatı, 1960, s.386.
4. V. Hüseynov. Dünya, sənə borcum qaldı. Bakı, Dünya, 1996, s.66.
5. A.Babayev. Sonetlər. "Azərbaycan" jurnalı, 1971, № 2, s.109-113.
6. A.Mikayılov. Lirik sətirlər. "Ədəbiyyat və incəsənət" qəzeti, 16 oktyabr 1971-ci il.
7. A. Babayev. Mənim abidəm. Bakı, Gənclik, 1979, s. 120 s.
8. E.Babayev. Ata olsam belə, ata istərəm. "Cümə axşamı" qəzeti, Bakı, 2000-ci il, 25-27 yanvar.